# ZİRVƏYƏ APARAN YOL

Xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazılmış 15 iyun — Qurtuluş Günü ümumxalq bayramına çevrilmişdir. Bu bayram günlərində bir daha ötən əsrin 90-cı illəri xatırlanır, ümummilli liderimiz Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətləri, bu böyük və dahi şəxsiyyətin müstəqilliyimizin qorunub saxlanılması, möhkəmləndirilməsi, dövlət quruculuğu sahəsindəki titanik fəaliyyəti bir daha təhlil edilir və öyrənilir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində yenicə müstəqillik əldə etmiş respublikamızda hökm sürən iqtisadi, siyasi böhran, ölkədaxili anarxiya 1993-cü ilin əvvəlində daha da kəskinləşərək silahlı qarşıdurmaya çevrilmişdi. O dövrdə hakimiyyətdə olan AXC-Müsavat cütlüyü artıq ölkəni idarə edə bilmirdi, korpus komandiri Surət Hüseynov hakimiyyəti ələ keçirmək üçün tabeliyində olan hərbi qüvvələri cəbhə bölgəsindən çıxararaq Gəncədən Bakıya hücuma keçmişdi. AXC-Müsavat hakimiyyəti isə buna cavab olaraq heç bir sağlam məntiqə sığmayan bir addım atdı. Bir tərəfdə Qobustan rayonu ərazisində Cəngidə, digər tərəfdən isə Navahıda səngər qazmağa başladılar.

Müstəqil respublikamızın tarixində ən ağır dövr yaşanırdı. Düşmən təcavüzünə məruz qalan ölkənin daxilində vətəndaş müharibəsi alovlanırdı. Ölkəmiz parçalanmaq, məhv olmaq, “olum-ölüm” dilemması qarşısında qalmışdı.

Ölkədə yaranmış xaos, anarxiya, özbaşınalıq, hakimiyyətlərin bir-birini əvəz etməsi və çoxhakimiyyətliliyin hökm sürməsi müstəqil dövlətçiliyə və onun sonrakı taleyinə çox ağır zərbələr vurdu.

Azərbaycanda müstəqil dövlət quruculuğu ardıcıl və məqsədyönlü proses olaraq, əslində, 1993-cü ildə ulu öndərimizin hakimiyyətə qayıdışından sonra, xüsusilə oktyabr ayından başlanmışdır. Həmin tarixdən başlayaraq, Azərbaycanda əldə olunmuş müstəqilliyin möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsi istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərilmişdir. Dövlətçilik üçün ciddi təhlükə törədən silahlı birləşmələr ləğv edildikdən və dövlət orqanlarında müəyyən idarəçilik təcrübəsinə malik olan adamların bilik və qabiliyyətindən optimal surətdə istifadə olunduqdan sonra daxili sabitlik dövrü başlandı ki, bu da quruculuq işləri üçün ilkin zəruri şərait yaratdı.

Gənc, müstəqil dövlətin keçdiyi inkişaf yolunun zaman baxımından mərhələləri ilə dövlət quruculuğunun istiqamətləri arasında sıx dialektik əlaqə vardır. Təbii ki, dövlət quruculuğu heç də sadəcə dövlət idarəçilik orqanlarının formalaşması ilə başa çatmır. Sözün geniş mənasında müstəqil dövlətin qərarlaşması onun öz maraqlarına və beynəlxalq siyasi reallıqlara uyğun müstəqil xarici və daxili siyasət xəttinin formalaşmasını, uzunmüddətli proqnoz əsasında müəyyənləşmiş inkişaf strategiyasının yaradılmasını və həyata keçirilməsini nəzərdə tutur.

Belə bir çətin və ağır məqamda xalq bir daha müdriklik göstərərək dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevə müraciət etdi. Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqımızın tarixində yeni eranın təməli oldu.

Xalqın dəstək və qüvvəsinə arxalanaraq ümummilli liderimiz Heydər Əliyevin həyata keçirdiyi müdrik siyasət nəticəsində tezliklə ölkədə vətəndaş müharibəsinin qarşısı alındı, silahlı qruplaşmalar zərərsizləşdirildi, dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, ölkədə ictimai-siyasi sabitlik bərpa edildi, iqtisadiyyatın inkişafı üçün əsaslı və cəsarətli islahatlar həyata keçirildi, hüquqi, dünyəvi dövlət quruculuğu istiqamətində mühüm addımlar atıldı, bir sözlə, bugünkü qüdrətli Azərbaycanın təməli qoyuldu.

Heydər Əliyev siyasi kursunu ləyaqətlə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində müstəqilliyimiz daha da möhkəmlənmiş, Azərbaycan regionun lider dövlətinə çevrilmişdir. Xalqımızın həyat səviyyəsi günbəgün yaxşılaşmaqdadır. Bu gün dövlətimizin dünya əhəmiyyətli tədbirə — I Avropa Oyunlarına ev sahibliyi etməsi misilsiz sevinc və qürur mənbəyimizdir. Hər bir qobustanlı da bu yüksəlişi, bu inkişafı, rifahımızın yaxşılaşmasını gündəlik həyatımızda hiss edir və görür. Əvvəllər boz səhranı xatırladan Qobustan indi şəhərə çevrilmiş, ulu öndərin adını daşıyan musiqili, fəvvarəli park salınmış, gənclər və uşaqlar üçün əyləncə mərkəzləri tikilmişdir.

Son illərdə rayonda 250-dən çox fərdi yaşayış evi, 7 yeni məktəb binası, o cümlədən Heydər Əliyev Fondu tərəfindən 4 məktəb binası tikilib istifadəyə verilmişdir. Onlarca yeni inzibati binalar, Qarabağ əlilləri və şəhid ailələri üçün 8 mənzilli yaşayış binası, 3 Qarabağ əlili üçün ikiotaqlı fərdi mənzillər tikilib istifadəyə verilmişdir. Qarabağ əlilləri üçün tikilmiş 16 mənzilli yaşayış binası bu günlərdə Qarabağ əlillərinin istifadəsinə veriləcəkdir.

İndi Qobustanda quruculuq, abadlıq, yaşıllaşdırma işləri geniş vüsət alaraq sürətlə davam etdirilir. Bir neçə inzibati binanın, 10 min tonluq tutumu olan taxılsaxlama anbarının, şəhər və kəndlərimizdə yeni parkların, 3 yeni məktəb binasının tikintisi davam etdirilir.

Rayonda 26 yaşayış məntəqəsindən 17-si təbii qazla təmin edilmiş, 9 yaşayış məntəqəsinin qazlaşdırılması üçün müvafiq tədbirlər görülür.

Qobustan şəhərini, Təsi, Bədəlli, Sədəfli, Cəmcəmli, Dərəkənd, Ərəbqədim, Göydərə kəndlərini içməli su ilə təmin edəcək Təsi su xəttinin çəkilişi böyük razılıqla qarşılanmışdır. Şəhərin küçələri asfaltlaşdırılır, yeni işıqlandırma sistemi quraşdırılır, abadlaşdırılması istiqamətində müvafiq işlər görülür.

Sevindirici haldır ki, artıq rayonumuzda su-kanalizasiya sisteminin yenidən qurulmasına başlanılmışdır.

Əlbəttə ki, bütün bunlar möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə irəliləyən Azərbaycanımızın bir bölgəsi olan Qobustanın daha da inkişaf edəcəyindən, çiçəklənəcəyindən, gözəlləşəcəyindən, abad və yaraşıqlı bir diyara çevriləcəyindən xəbər verir.

**Füzuli GÜLƏLİYEV,**
**Qobustan Rayon Təhsil Şöbəsinin müdiri, YAP rayon təşkilatının sədri.**